Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Uşaq və gənclərin fiziki və mənəvi inkişafı

# Azad ərazilərdə məskunlaşmanın uşaq və gənclərin formalaşmasına təsiri...

**Bu gün Azərbaycan uşağı və gənci daha qürurludur. Onların qürurunun əsas ünvanı isə 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi faktıdır.**

Vətən müharibəsi Azərbaycanın qələbəsi ilə başa çatdıqdan sonra azad edilmiş rayonlara Böyük Qayıdış məsələsi gündəmə gəldi. 16 noyabr 2022-ci il tarixində "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzaladı. Bu sərəncam 30 il yurdundan zorla ayrı qalmağa məcbur edilən vətəndaşlarımızın öz evinə qayıdışına vəsiqə oldu. Böyük Qayıdış proqramına start verilməsi keçmiş məcburi köçkünlərin yenidən öz rayonuna, kəndinə qayıtmasına səbəb oldu. Böyük Qayıdışın daha çox uşaq və gənclərin mənəvi ruhunun yüksəlməsinə təsir etdiyi məlumdur.

"Böyük Qayıdış" proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin Zəngilan rayonun Ağalı kındinə, Laçın şəhərinə qayıdışının təmin edilməsi, onların digər azad ərazilərimizə qayıdışın uşaq və gənclərin mənəvi inkişafına stimul verir. Uşaq və gənclər heç zaman görmədikləri, lakin barəsində daim eşitdikləri, ata - analarının, nənə - babalarının doğma evinə qayıtmağı hər zaman istəyiblər. Ağalıya, Laçına köçün timsalında deyə bilərik ki, uşaq və gənclərimiz üçün yeni yeni həyatları başlayır və onlar tarixi torpaqlarımızda öz həyatlarını davam etdirirlər.

Torpaqlarımız azad edildikdən sonra Prezident İlham Əliyev "Ölkəmiz üçün yeni quruculuq, azad edilmiş ərazilərimizin bərpası dövrü başlayır. Əminəm ki, Azərbaycan xalqı yenə də birlik, güclü iradə göstərəcək və dağıdılmış şəhər, kəndlərimizi bərpa edəcək" deyə bildirirdi. Prezidentin siyasi iradəsi və Azərbaycan xalqının əzəməti ilə artıq Prezidentin dedikləri həyata keçir.

### Uşaqlar Zəfərin təntənəsində...

Vətən müharibəsində Zəfər sevincinə uşaqların reaksiyası bir başqa cür oldu. Geri qayıdış xəbəri də uşaqları bir o qədər sevindirdi. Xüsusən də, smart tipli məktəbdə dərs keçmək, burada müəllimlərdən Zəfəri anladan sözlər, cümlələr eşitmək bir ayrı sevincdir.

Bildirdiyimiz kimi, Ağalıda həyat qaynayır, məktəb, bağça açılıb, yaradıcılıq mərkəzi açılıb.

Məlum olduğu kimi, Ağalı kənd məktəbi 29 ildən sonra açıldı. Qeyd olunur ki, Ağalı məktəbi Qarabağ və Şərqi Zəngəzurda ilk məktəb zənginin çalındığı, şagirdlərin əlinə çanta alıb dərsə getdiyi məkandır. Bu barədə mətbuatda yazılır:"İndi həmin məkanda İkinci Qarabağ müharibəsində qəhrəmancasına savaşaraq tarixi qələbə qazanan Azərbaycan gənclərinin əsl vətənpərvər ruhda böyüməsində əvəzsiz xidmətləri olan müəllimlər məhz Zəfərin uşaqlarına dərs keçirlər".

Zəngilana, Ağalı kəndinə qonaq gedənlər həmişə yollarını məktəbdən salırlar ki, zəfərin qazanıldığı yerlərdə təhsil alan uşaqların duyğularına həmdəm olsunlar.

Zəngilanda, Şuşada, Laçında əhalinin məskunlaşdırılması prosesinə start verildikdən sonra ictimai qurumlar da yollarını oralardan salır.

### Gənclər üçün təlimlər...

Məlum olduğu kimi, Qayıdış Könüllüləri proqramı icra olunur və gənclərin iştirakı ilə davam etdirilir. Proqram Şuşada və Zəngilanda təqdim olunub.



Zəngilan könüllülərinin təqdimatında könüllülər Ağalı kəndinin ərazisini gəzərək buraya köçürülən ailələr üçün yaradılan şəraitlə yaxından tanış olub, görülən və planlaşdırılan bərpa-quruculuq işləri haqqında ətraflı məlumat alıblar. Həmçinin könüllülər Ağalı kənd tam orta məktəbində kənddə məskunlaşan uşaq, yeniyetmə və gənclərlə görüşüb, fikir mübadiləsi aparıb, öz təəssüratlarını onlarla bölüşüblər.

### "Azad torpaqlarda uşaqlarımız çox xoşbəxtdir"

"Vəfa" İctimai Birliyinin rəhbəri Fatimə Hacıbəyli Bakı-Xəbər"ə şərhində bildirdi ki, uşaq və gənclərin mənəvi inkişafında bir sıra amillər böyük rol oynayır. O qeyd etdi ki, Azərbaycan gəncləri və uşaqları bu gün zəfər qazanmış bir ölkənin bəxtəvər vətəndaşlarıdır: "Azad ərazilərimizdə həyat yenidən bərpa olunur. Qayıdış baş verən Laçında, Ağalıda uşaqların fiziki və mənəvi inkişafı üçün hər cür şərait yaradılır. Azad rayonlarda idman kompleksləri, uşaq inkişaf mərkəzləri də olacaq. Biz Ağalının timsalında gördük ki, Azərbaycan dövləti çox qısa müddətdə rayon və kəndləri bərpa etməyə başlayıb. Ağalıya, Laçına köç karvanları gedib, Şuşada yaşayış var. Geri qayıdan ailələr içində uşaqlı ailələr də çoxdur və gördüyünüz kimi, onlar gedib orada təhsil alırlar. Ağalıda təhsil alan uşaqlar, burada dərs deyən müəllimlər hər şeyə fərqli yanaşırlar. Çünki onlar Zəfər qazanılan bir yurdda yaşayırlar. Azad torpaqlarda uşaqlarımız çox xoşbəxtdir. Azərbaycan dövləti uşaq və gənclərin mənəvi, eləcə də fiziki inkişafı üçün çox böyük proqramlar həyata keçirir. Görürsüz ki, azad rayonlarda gənclər üçün müxtəlif proqramlar çərçivəsində təlimlər keçirilir. Bu onların inkişafına daha böyük töhfə verir. Məlumdur, gənclərimiz cəmiyyətimizin aparıcı qüvvəsi olaraq işğaldan azad edilmiş ərazilərimizin bərpasında da fəal iştirak edirkər. Eyni zamanda, həmin ərazilərimizdə yaşayışın bərpa olunması, həyatın canlanması gənclərin dayanıqlı və fərdi inkişafına əhəmiyyətli təsirini göstərir. Vurğulayaq ki, Nazir işğaldan azad edilmiş ərazilərdə işğaldan əvvəl ümumilikdə 259 məktəbəqədər təhsil, 673 ümumi təhsil, 40 məktəbdənkənar, 14 peşə təhsili, 7 orta ixtisas təhsili olmaqla 993 təhsil müəssisəsi fəaliyyət göstərib. Bu gün də bərpa edilən ərazidə gənclərin inkişafı üçün tədris sahəsində də işlər görülür. Həm onların məşğulluğunun təmin edilməsi, həm də başqa amillər onların mənəvi inkişafını səciyyələndirən amillərdən biridir".

F.Hacıbəyli qeyd etdi ki, əvvəllər bizim uşaqlar daha çox işğal ağrısı yaşayırdılar, indi isə onlar Zəfər qazanmış bir ölkənin vətəndaşları kimi böyüyürlər. O, vurğuladı ki, uşaq və gənclərimiz indi qəhrəman oğulların dpyüşdükləri, qəhrəmanlıq epopeyası yaratdığı yerləri yaxından görür.

Azad ərazilərdə məskunlaşdırma siyasətinin böyük tarixi əhəmiyyətini vurğulayan müsahibimiz qeyd etdi ki, indi o torpaqlarda bizim Vətən övladları gəzir, tərbiyə alır.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**